# Kitab sərgi-yarmarkası

Lənkəran Şəhər İcra Hakimiyyətinin və Lənkəran Regional Mədəniyyət İdarəsinin təşkilati dəstəyi, "TEAS Press" Nəşriyyat Evinin təşəbbüsü ilə Lənkəran şəhər Heydər Əliyev Mərkəzində kitab sərgi-yarmarkası təşkil olunub. Regionlarda kitab sərgilərinin keçirilməsi yerli insanlar tərəfindən böyük sevinclə qarşılanıb. Sərgi çərçivəsində sevilən yazıçılar Elxan Elatlı, Sevinc Nuruqızı və Zahid Xəlilin imza saatları təşkil olunub, oxucular yazıçıların 44 günlük Vətən müharibəsi ilə bağlı qələmə aldıqları kitabları müəlliflərin imzaları ilə əldə ediblər.

Onu da bildirək ki, iki günlük kitab sərgi-yarmarkası çərçivəsində 300 adda 1500-ə yaxın kitab oxucuların diqqətinə təqdim edilib. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov "TEAS Press" Nəşriyyat Evinin nümayəndələri ilə görüşübdür. O, görüş zamanı rayonlarda kitab sərgilərinin keçirilməsi cəmiyyətdə kitaba olan marağın artırılmasına və mütaliə mədəniyyətinin təbliğ olunmasına verdiyi dəyərdən söz açıbdır.



Nəşriyyat evinin nümayəndələri öz növbəsində isə şəhidlərimizin xatirəsinə həsr olunan "Memorial" kitabını icra başçısına hədiyyə ediblər.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Kredo.- 2022.- 24 dekabr.- S.15.